**Maddə 90. Gömrük nəzarəti həyata keçirilərkən qanunsuz zərər vurulmasına yol verilməməsi**

90.2. Gömrük orqanları və onların vəzifəli şəxsləri qanunsuz hərəkətləri (hərəkətsizliyi), habelə qanuna və ya digər hüquqi akta uyğun gəlməyən qərarın qəbul edilməsi nəticəsində fiziki və ya hüquqi şəxsə vurulmuş zərərin əvəzini ödəməlidirlər.

**Qeyd:** *Mövcud redaksiyada qanunsuz zərər vurmuş gömrük orqanları və onların vəzifəli şəxslərinin qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıdığı qeyd edilsə də, qeyri-müəyyənlik və hüququn sabitliyi baxımından norma təkmilləşdirilmiş, fiziki və ya hüquqi şəxslərin qanunla qorunan ictimai münasibətlərə qarşı gömrük orqanlarının nə qədər mühafizəkar yanaşdığı bir daha öz təsdiqini tapmışdır.*

**Maddə 92. Gömrük nəzarətinin formaları**

92.7. Bu Məcəllənin 92.2-ci maddəsində nəzərdə tutulan gömrük nəzarətinin formaları Azərbaycan Respublikasının dövlət dilini bilməyən şəxslər barəsində tətbiq edildikdə gömrük orqanları həmin şəxslərin tərcüməçinin köməyindən istifadə etmək hüququnu, bu mümkün olmadıqda onlara ana dilində və ya bildikləri başqa dildə hüquq və vəzifələrinə dair müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada bildirişin təqdim olunmasını təmin edirlər.

**Qeyd:** *Layihədə təklif edilən bu dəyişiklik mahiyyətindən də göründüyü kimi beynəlxalq hüququn ümumi prinsiplərini, humanist yanaşmanı özündə ehtiva etməklə qanun qarşısında hər kəsin bərabər hüququnun tanınması, gömrük orqanları tərəfindən aparılan inzibati, eləcə prosessual hərəkətlərin qanuniliyini təcəssüm etdirir.*